UOT 376.3

***Mətanət Cümşüd qızı Rəhimova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialının müəllimi*

# CƏMİYYƏTƏ İNTEQRASİYADA İNKLÜZİV TƏHSİLİN ROLU

***Матанат Джумшуд гызы Рахимова***
*преподаватель Шамахинского филиала Азербайджанского Государственного Педагогического Университета*

# РОЛЬ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ В ИНТЕГРАЦИИ ОБЩЕСТВА

***Matanat Jumshud Rahimova***
*teacher at Shamakhi branch of Azerbaijan State Pedagogical University*

# THE ROLE OF INCLUSIVE EDUCATION IN SOCIETY INTEGRATION

**Xülasə.** Məqalə əlilliyi olan uşaqların sosial inteqrasiyasında inklüziv təhsilin rolunun öyrənilməsinə həsr edilmişdir. Əlilliyi olan uşaqların sosial inteqrasiyası təhsilin mövcudluğu və keyfiyyəti ilə ayrılmaz şəkildə bağlıdır. Xüsusi təhsil ehtiyacları olan uşaqlara və digər uşaqlara birlikdə dərs vermək çox mürəkkəb və vaxt aparan bir prosesdir. Bununla yanaşı, həm əlilliyi olan, həm də əlilliyi olmayan insanlar üçün inklüziv təhsilin faydaları vardır. Vurğulanır ki, inklüzivlik əlilliyi olan uşaqların uğurlu sosial inteqrasiyasına kömək edir.

***Açar sözlər:*** *inklüziv təhsil, sosial adaptasiya, əlilliyi olan uşaqlar, təhsilin əlçatanlığı, inklüziv təhsilin üstünlükləri*

**Резюме.** Статья посвящена изучению роли инклюзивного образования в социальной интеграции детей с ограниченными возможностями. Социальная интеграция детей с ограниченными возможностями здоровья неразрывно связана с доступностью и качеством образования. Совместное обучение детей с особыми потребностями и здоровых детей является сложным и трудоемким процессом. Тем не менее, в инклюзивном образовании существуют преимущества, как для детей с особыми потребностями, так и для здоровых детей. Подчеркивается, что инклюзия способствует успешной социальной интеграции детей с ограниченными возможностями.

***Ключевые слова:*** *инклюзивное образование, социальная адаптация, дети с инвалидностью, доступность образования, преимущества инклюзивного образования.*

**Summary.** The article is devoted to studying the role of inclusive education in the social integration of children with disabilities. Social integration of people with disabilities is inextricably linked to the access and quality of education. Inclusive education of children with disabilities and health children is a complex and time-consuming process. However, inclusive education, there are benefits for people with disabled and for healthy people. Stresses that the inclusion contributes to the successful social integration of children with disabilities.

***Keywords:*** *inclusive education, social adaptation, children with disabilities, access to education, benefits of inclusive education.*

"İnteqrasiya" və "inklüziya" tez-tez bir-birinin əvəzinə istifadə olunan iki termindir. Belə ki, bir çox müəllimlər onları eyni mənalı termin kimi qəbul edirlər. İnklüziya bütün uşaqların istisnasız olaraq ümumtəhsil sisteminə daxil edilməsini nəzərdə tutur. Beləliklə, müxtəlif xüsusiyyətləri olan uşaqların cəmiyyətə xüsusi uyğunlaşmasına ehtiyac olduğu ortaya çıxır.[2]. İnklüziv təhsil həm də ümumi təhsilin inkişafı prosesidir. Təhsilin bütün uşaqların müxtəlif ehtiyaclarının ödənilməsi baxımından hamı üçün əlçatan olmasını nəzərdə tutur. Bu xüsusi qayğıya ehtiyacı olan uşaqların da təhsil almasını təmin edir. Bununla da inklüziya əlilliyi olan

və olmayan uşaqların, müxtəlif təhsil ehtiyacları olan şagirdlərin, bir sözlə, hər kəsin cəmiyyətə inteqrasiya olunmasını təmin edir.

Qeyd etmək lazımdır ki, dünyanın bir çox ölkələrində (Böyük Britaniya, ABŞ, İsveçrə və s.) xüsusi qayğıya ehtiyacı olan uşaqlar digər yaşıdları ilə birlikdə ümumtəhsil məktəblərində təhsil alır və uşaq bağçalarına gedirlər. İnklüziv təhsilin inkişafı dünyanın bir çox ölkələrinin təhsil siyasətinin əsas prioritetlərindəndir və ümumiyyətlə, hər hansı bir ölkənin təhsil sisteminin beynəlxalq prinsip və standartlara uyğunlaşdırılması məqsədini daşıyır.

Müasir dövrdə inklüziv təhsil dedikdə uşaqların məktəbəqədər müəssisələrdə, orta təhsil məktəblərində dərs alması prosesi nəzərdə tutulur ki, bunun da xüsusi tələbləri var. Təlim metodikasına müvafiq olaraq inklüziv təhsil uşaqlara qarşı hər hansı formada ayrı-seçkilik edilməsinin qarşısını alır, müxtəlif əlillikləri olan uşaqlara mükəmməl şəkildə təhsil almaq, uğur qazanmaq imkanı verir. Onun əsas vəzifəsi cəmiyyətdən təcrid olunmuş insanların cəmiyyətə inteqrasiyası və peşə hazırlığı üçün sərhəd tanımayan mühit yaratmaqdır. Ümumiyyətlə, inteqrasiya iki tərəfli prosesdir: bir tərəfdən insan cəmiyyət həyatına inteqrasiya etməyə çalışmalıdır, digər tərəfdən cəmiyyət uğurlu sosial inteqrasiyanı təşviq edən tədbirlər görməlidir.

Bildiyimiz kimi, İnklüziv təhsil anlayışı insan hüquqları prinsipinə əsaslanır. İnsan Hüquqları Konvensiyasına görə, dövlətlər elə bir təhsil sistemi qurmalıdır ki, təhsilalma hüququ hər bir uşağa şamil edilsin. Azərbaycan Respublikası İnsan Hüquqları Konvensiyasını 1992-ci ildə imzalayıb və respublikamızda yaşayan hər bir uşağın təhsil alma hüququnu qorumağı öz üzərinə götürmüşdür. “2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı” da məhz bu sahənin inkişaf etdirilməsini nəzərdə tutmuşdur. Proqrama əsasən tərtib olunan Tədbirlər planına uyğun olaraq, normativ hüquqi aktların təkmilləşdirilməsi, pedaqoji kadrların hazırlanması, bütün uşaqların təhsilə cəlb olunması üçün təbliğat və ictimai maarifləndirmə işləri həyata keçirilir.[1]

Bundan əlavə, Heydər Əliyev Fondu tərəfindən müxtəlif səbəblərdən cəmiyyətin diqqətindən kənarda qalan uşaqların təhsilinin təşkili, onların təhsil aldığı müəssisələrin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi istiqamətində məqsədyönlü işlər görülmüşdür.

İnklüziya sahəsində araşdırmalar qeyd edir ki, cəmiyyət əlilliyi olan uşaqların assimilyasiyasına neytral və ya passiv-mərhəmət mövqeyi nümayiş etdirir, belə uşaqların çətinlikləri ətrafdakılar tərəfindən mühitin öhdəliyi kimi deyil, uşaqların öz çətinlikləri kimi qəbul edilir. Cəmiyyətdə əlilliyi olan uşaqları əhatə edən əksəriyyət onlara qarşı passiv tolerantlıq göstərir. [3]. Belə ki, daha çox tibbi modellə yanaşma üstünlük təşkil edir. Odur ki, inklüziv təhsil və cəmiyyətin qurulmasından danışarkən ilk olaraq yanaşmaların dəyişdirilməsi diqqət mərkəzində saxlanılmalıdır. Müasir cəmiyyət isə hər kəsə sosial yanaşmağın doğruluğunu ortaya çıxarmışdır. Sosial yanaşma şəxsin əlilliyini deyil, müsbət tərəflərini görməyi, ona istinad etməyi və cəmiyyətin hər bir üzvünün hüquqlarına hörmət etməyi tələb edir. Təhsildə sosial yanaşma isə şagirdin öyrənə bilməməsinin, məktəbə gələ bilməməsinin səbəblərini təhsil sistemində, kurikulumlarda, fiziki və psixoloji mühitin düzgün qurulmamasında axtarmağı tələb edir.

İkinci olaraq inklüziv təhsilin qurulması bu sahədə kadr hazırlığına diqqət yetirməyi tələb edir. Çünki təhsil prosesinin hərəkətverici qüvvəsi olan müəllim mütləq inklüziv dəyərlər, anlayışlar və bacarıqlar baxımından hazırlıqlı olmalıdır. Bütün uşaqların məktəbə gələ bilməsi hələ inklüziv təhsilin uğurla qurulmasından xəbər vermir. Təhsilin davamlılığını təmin etmək üçün müəllim sinifdə düzgün fiziki, psixoloji və öyrədici mühit yaratmalıdır. Təbii ki, məktəb rəhbərliyinin də bu sahədə həm maarifləndirici, həm də idarəedici rolu böyükdür. Hazırda bununla bağlı ölkədə müxtəlif qrant və dövlət səviyyəli layihələr həyata keçirilir.

Üçüncü olaraq inklüziv təhsilin qurulması bütün maraqlı tərəflərin əməkdaşlıq etməsini tələb edir. Maraqlı tərəflər dedikdə, məktəb, valideyn, dövlət qurumlarının birgə fəaliyyəti nəzərdə tutulur. Belə ki, valideyn və cəmiyyətin birgə fəaliyyəti təhsil üçün və əlilliyi olan uşaqlar üçün xüsusilə vacibdir. Valideynlər və məktəblər arasındakı müsbət ünsiyyət uşaqların münasibətlərini və təhsildə nailiyyətlərini artırır. Ailələrin məktəblərlə işləmələri üçün ilk addımda valideynlər və sosial tərəfdaşlar bir-birinə

qarşılıqlı, hörmət etdiklərini hiss etdirməlidirlər. Ailələrin və icmaların inkluziv təhsili dəstəklənməsinə cəlb edilməsi bütün tərəflərin fərqli yanaşmalarının vəhdət halında tətbiqini təmin edir, beləliklə həm cəmiyyətə, həm də təhsilə inteqrasiya məsələsində effektivlik artır. Xüsusilə ilk illərdə ailənin iştirakı həm sinifdə, həm də sinifdənxaric təhsilin keyfiyyətinin artırılmasında vacib bir prinsipidir. Bu prinsipin yerinə yetirilməsi üçün xarici ölkələrin təcrübəsində ailə, məktəb və ictimaiyyətin inklüziv təhsillə bağlı əməkdaşlığını təmin etmək məqsədilə "Uşaq və ailə dəstək planı" tətbiq olunur. Planın tərtibi zamanı hər üç tərəf uşağın müsbət tərəflərinin ortaya çıxarılması, gələcək inkişafı, qısamüddətli və uzunmüddətli hədəflərin müəyyən edilməsi kimi mühüm problemlər həll olunur. Uşağın dərsdənkənar vaxtlarda olan fəaliyyətinin idarə edilməsi və zəruri dəstəyin göstərilməsi üçün planın tərtib olunarkən icmanın da iştirakı mühüm tələblərdəndir. Məktəb rəhbərliyi, psixoloq və digər müəllimlərin əməkdaşlığı isə hədəflərin düzgün müəyyən edilməsi üçün mühüm şərtdir. Bu tip planların ölkəmizdə də tətbiqi mühüm nəticələr verə bilər.

Cəmiyyətin bütün üzvlərinin inteqrasiyası inklüziv təhsilin qurulmasını tələb edirsə, inklüziv təhsilin tətbiqi də ümumtəhsil siniflərində diferensiallaşmanı tələb edir. Bu müəllimlərin tətbiq etməli olduğu elə bir strategiyadır ki, tədris proqramının məzmununa, tədris və qiymətləndirmə metodlarına, öyrənmə tərzlərinə, şagird ehtiyaclarına və xüsusiyyətlərinə uyğunlaşdırılaraq tədrisi hər bir öyrənən üçün faydalı edir.

İnklüziv sinifdə təlimlərin fərqləndirilməsinin vacibliyini belə əsaslandıra bilərik ki, diferensial-fərdiləşdirilmiş təlim eyni sinifdə müxtəlif qabiliyyətli öyrənənlər, öyrənmə çətinliyi olanlar üçün elə bir tədris və öyrənmə prosesi formalaşdırır ki, burada fərqləndirici təlimin məqsədi hər bir şagirdi olduğu kimi, əsasən güclü tərəflərini nəzərə alaraq görmək və tədris prosesinə onlar üçün maraqlı və öyrədici olan xüsusiyyətləri qatmaqdır. Bunun üçün müəllim fərqli təlim strategiyalarından istifadə etməlidir. Bu fərqlilik həm iş formalarında, həm təlim üsullarında, həm də akkomadasiya və modifikasiyadan istifadə imkanlarından istifadə zamanı özünü büruzə verir.

Təlimin akkomodasiyası – akkomodasiya tədris materialının məzmununu və anlama baxımından mürəkkəbliyini dəyişmədən təlimin xarakterini dəyişir. Akkomodasiya termini əlilliyi olan uşağın cəmiyyətə adaptasiyasına şərait yaradan mühit və ya təchizatın dəyişdirilməsini tərif etmək üçün istifadə olunur, həmçinin müxtəlif təhsil ehtiyacları olan uşaqların nizamlı şəkildə təlim kursuna davam etmələrini təmin edir. Akkomodasiya öyrənməni fərdiləşdirən, materialı dəyişdirmədən öyrətməyə təşviq edən taktika və strategiyadır.

Təlimin modifikasiyası – modifikasiya tədris materialının məzmunu və anlama baxımından mürəkkəbliyini dəyişməklə təlimin xarakterini dəyişir. Modifikasiya termini dəyişikliyi ifadə etmək üçün istifadə olunur. Müəllimin öyrətdiyi materialı dərk etməkdə çətinlik çəkən uşaqlar üçün dəyişiklik edilir. Məsələn, tapşırıqların sayı azaldılır, material hissələrə bölünür və s. Belə ki, modifikasiya şagirdin öyrənməsi üçün materialları dəyişdirən taktika və strategiyadır.

İnklüziv təhsilin əsas tələbi məktəbi qeydiyyata alınma məsələsi deyil və ola da bilməz. Cəmiyyətə adaptasiya həm də uşaqların fərliliklərinə uyğun olaraq fiziki, psixoloji və öyrədici mühiti yaratmaqdan başlayır. Məktəbin fiziki mühitinin düzgün qurulması (məsələn, fiziki əlilliyi olan şagirdin rahat hərəkətinin təmin olunması), fərqli təhsil ehtiyaclarına uyğun olaraq təhsilin məzmununu özündə əks etdirən sənəd və metodik vəsaitlərin təkmilləşdirilməsi, təhsilverənlərin inkıüziv təhsil strategiyalarına və üsullarına yiyələnməsi, idarəetmənin üsul və prinsiplərində inklüziv dəyərlərin nəzərə alınması da inklüziv təhsil üçün vacib şərtlərdəndir.

Bu təhsil modeli ayrıseçkiliyin aradan qaldırılması məsələsini də ortaya çıxarır. Belə ki, yalnız hüquqi əsaslarda deyil, təhsilin bütün tərəfdaşlarına (müəllimlər, məktəb rəhbərliyi, ailələr) məsuliyyət düşür. Mükəmməl bir təhsil mühiti həm də bütün tərəflərin əməkdaşlığı ilə qurulmalıdır, ailələrin inklüziv təhsil sahəsində biliklərinin yetərsizliyi inklüziv təhsilin qurulması üçün bir maneədir.

Bütün təşkilatı və hüquqi işlərin həll olunması zamanı diqqət yetirilməlidir ki, cəmiyyətə inteqrasiyada mühüm olan odur ki, uşaq hiss etsin ki, o da cəmiyyətin bərabərhüquqlu üzvüdür, onun fikirlərinə hörmət olunur. [4]. Yalnız

bu halda hər kəsin təhsilə və cəmiyyətə davamlı inteqrasiyasını təmin edə bilərik.

**Problemin aktuallığı:** Bütün uşaqların cəmiyyətə inteqrasiya olunmasının üçün inklüziv təhsilin qurulması vacib məsələdir. Məqalədə inklüziv təhsili şərtləndirən məsələlərə yer verilmişdir.

**Problemin elmi yeniliyi:** Müasir dövrün tələbi kimi, bütün şagirdlərin öyrənə biləcəyi təhsil mühitinin formalaşdırılması diqqət mərkəzində saxlanılır.

**Problemin praktik əhəmiyyəti:** Sinfində fərqli təhsil ehtiyacları olan müəllimlər inklüziv təhsil strategiyaları və düzgün qurulmuş əməkdaşlıq yolu daha səmərəli öyrədici mühit yarada bilər.

**Ədəbiyyat:**

1. 2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə dövlət proqramı. Bakı şəhəri, 14 dekabr 2017-ci il № 3498

2. İnklüziv siniflərdə təlimin təşkili. TPİİ. Bakı-2018

3. Буре Р.С., Островская Л.Ф. Воспитатель и дети. М., 2001. 174 с. 3. Банч Г. 10 ключевых пунктов успешной инклюзии / Г. Банч; пер.

4. https://socialcapital.wordpress.com/2007/07/30/community-map

5. https://www.hurriyet.com.tr/egitim/kapsayici-egitime-ihtiyacimiz-var-40230998

**E-mail:** firide_mustafayeva.57@mail.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok.* **F.F. Mustafayeva,**
*ped.ü.fəls.dok.* **G.V. Sultanova**
**Redaksiyaya daxil olub:** 24.09.2021.